# Uşaqlar üçün kiçik hekayələr



Reyhan Yusifqızı

## İKİ GÜL

**Öz məhəbbəti ilə rəfiqəsini xilas edən fədakar gülün nağılı**

Yolun kənarında otların arasında iki gül bitmişdi. Güllər bütün günü baş-başa verib pıçıldaşır, bir-birini sığallayır, küləyin gücünə birgə sinə gərirdilər. Günəş onların ən yaxın dostu idi. Gün çıxanda sevinir, onun istisinə qızınır, özlərini çox xoşbəxt sayırdılar.



Bir gün yoldan keçən bir oğlan özü də bilmədən iri ayaqqabısı ilə güllərdən birini əzdi. O biri gül təlaşla dedi: "Sən nə etdin?! Belə gözəl varlığı da əzərlər?"

Gül göz yaşları ilə rəfiqəsini suladı. Sonra yarpaqları ilə onu sığallayıb qaldırmağa çalışdı, amma bacarmadı. Rəfiqəsi həddən artıq çox əzilmiş, gövdəsi əyilmiş, yarpaqları qatlanıb torpağa yapışmışdı.

Budaqda oturub bu mənzərəni seyr edən sərçə başını bulayaraq uçub getdi. Lakin gül təslim olmadı. Rəfiqəsini xilas etmək üçün səbirlə əlindən gələni etdi. Gecələr yarpaqları ilə onun üstünü örtərək soyuqdan, gündüzlər küləkdən qorudu. Günün istisi əzilmiş gülü qızındırdı, yağış damlaları isə suladı. Torpaq ona qüvvət verdi. Hamı rəfiqəsi üçün göz yaşı tökən gülün dərdinə şərik oldu.

Nəhayət, bir gün səhər xəstə gül yerdən baş qaldırdı, ləçəklərini geniş açaraq günəşə tərəf boylandı. Günəş ona gülümsədi. Gül gövdəsini zəif-zəif tərpədib günəşə öz minnətdarlığını bildirdi. Günəş dedi: "Ey gözəl gül! Düzdür, mən öz şüalarımla səni qızındırdım, lakin səni xilas edən mənim istiliyim olmadı, yanındakı insanın sənə məhəbbəti oldu".

## KOMPÜTERİN OYUNU

Toğrul məktəbdən gələn kimi çantasını bir tərəfə atıb kompüterini yandırdı. Həvəslə oyun oynamağa başladı. Saatlar keçdi, Toğrul isə komüterdən əl çəkmədi. O hərdən əllərini bir-birinə vurub bərkdən gülür, qışqırırdı.



Birdən Toğrul acıqlı bir səs eşitdi: "Bəsdir daha! Bu qədər oynamaq olar?! Mən artıq yorulmuşam!" Toğrul qorxdu. Qaçıb divanın arxasında gizləndi.

- Kimdir o?!

- Tanımadın? Mənəm, sənin kompüterin!

Toğrulun gözləri böyüdü. Doğrudan da, Kompüter əllərini belinə qoyub hirsli-hirsli ona baxırdı...

Toğrul qorxa-qorxa soruşdu:

- Bu necə olur? Axı kompüterlər danışa bilmir.

- Bəli, elədir. Amma mən daha dözə bilmədim! Bu qədər oyun oynamaq olar? Bəs sən dərslərini nə vaxt oxuyacaqsan?

Dərs kitabları çantadan çıxıb yazı masasının üstünə düzüldülər:

- O bizi oxumaq istəmir!

Qapı açıldı. Toğrulun anası içəri girdi. Ona boşqabda meyvə gətirmişdi. Toğrul anasının yanına qaçıb kompüteri və kitabları göstərdi, kəkələyə-kəkələyə dedi:

- B-bax, ana, b-bunlara bax!

Amma anası təəccüblü heç nə görmədi. Kompüter səssizcə öz yerində durmuşdu, ekranı da sönmüşdü. Kitablar da stolun üstünə qalaqlanmışdı.

- Afərin oğlum! Kompüteri söndürmüsən ki, dərslərini oxuyasan. Bax, həmişə belə ol!

Toğrul ayaqlarını sürüyə-sürüyə dərslərini oxumağa getdi.

## ULDUZ PƏRİSİ

Günlərin bir günündə sayrışan ulduzların arasından dənizə bir işıq zərrəciyi düşdü. O, mavi sulara dəyən kimi dönüb gözəl bir Pəri oldu: Ulduz Pərisi.

Dənizin dibində cürbəcür dəniz heyvanları yaşayırdı. Amma onların heç biri Ulduz Pərisinin gözəlliyini görə bilmirdi, çünki onun işığından gözləri qamaşır, yaxınlaşa bilmirdilər.

Gözəl Pəri qırmızı mərcandan özünə ev düzəltmişdi. Amma o həmişə kədərli olurdu. Çünki tək idi, darıxırdı. Onun gözəlliyi heç kimə lazım deyildi. Dərdini yalnız qayalara çırpılan dalğalara söyləyə bilirdi. Bütün duyğularını içində səssizcə yaşayırdı.

Bir dəfə kor bir balıq Ulduz Pərisinə rast oldu. Gözləri görmədiyi üçün lap yaxına gəldi. Pəri çox sevindi, balıqla söhbət etdi. Onun kor olduğunu biləndə məyus oldu. Balıq güldü: "Sən çox gözəlsən.



Bunu bilmək üçün səni görmək vacib deyil. Səninlə danışmaq, ürəyinin səsini duymaq kifayətdir" dedi. Ulduz Pərisi balığın boynunu qucaqlayıb ağladı

Onlar dostlaşdılar. Balıq hər gün Pərinin yanına gəlməyə başladı. Günlərin birində Pəri öz işığını kor balığın gözlərinə verdi. Balığın gözləri açılıl və o, Pərinin nə qədər gözəl olduğunu gördü - Ulduz Pərisi daha işıq saçmırdı, amma xoşbəxt olduğu üçün daha gözəl idi.

Ulduz Pərisi xoşbəxtlik saçırdı.